- AQTİ ali rəhbərlik də daxil olmaqla bütün heyəti, halal sertifikatlaşdırma orqanlarının müştəriləri, halal sistemləri ilə sertifikatlaşdırılmış şirkətlərin müştəriləri, dövlət strukturları, özəl şirkətlər, AQTİ müştəriləri və digər maraqlı tərəflərə və məsələlərə İslami həssasiyyətlə yanaşılacağının və OIC/SMIIC standartlarına uyğun həyata keçiriləcək halal sertifikalaşdırma fəaliyyətlərinin, həm OIC/SMIIC standartlarındakı tərəfsizlik şərtlərinə, həm də əlaqədar qanuni tənzimləmələrə uyğun olmasına yönəlik məsuliyyətlərinin fərqindədir.

- AQTİ-in bütün əməkdaşları, xüsusilə halal sertifikatlaşdırma üzrə məsul şəxslər bütün İslami dəyərlərə bağlı olaraq rəhbərlik üzvləri, əməkdaşları, ümumi davranış və ictimai qarşılıqlı əlaqə baxımından yüksək İslami dəyərlər standartı nümayiş etdirərək İslami dəyər standartlarına uyğun ofis mühiti daxilində işləyirlər.

- AQTİ bütün fəaliyyətlərində İslami prinsiplərə və iş etikasına bağlı, tərəfsizliyi təmin edərək maraq toqquşmalarına imkan vermədən və gizliliyin qorunması prinsipinə sadiq olaraq, şəffaflıqla, ayrıseçkilik etmədən, müstəqil və tərəfsiz sertifikalaşdırma qərarlarını tətbiq edərək milli/beynəlxalq standart və qanuni tələbləri yerinə yetirir.

- AQTİ öz sahələrində ixtisaslaşmış sektor təcrübəsinə və İslami iş etikasına malik olan, uyğun, peşəkar bir heyət yaratmaqla prinsipial, müasir və müştəri məmnuniyyətini ön planda tutan idarəetmə yanaşması ilə təşkilatın bütün mərhələlərində problemləri həll edən və işlədikləri işə sahib çıxan kadrları yetişdirir, davamlı təlim proqramları təşkil edərək heyətin bilik və bacarıqlarını inkişaf etdirir.

- AQTİ audit zamanı və audit sonrası fəaliyyətlərində bütün akkreditasiya və standart qaydalarına əməl edərək İslam qaydaları əsasında müştəri məmnuniyyətini təmin edir. Şirkətləri maraqlandıran və xidmət sahəmizdə olan yeni məlumatlarla şirkətləri xəbərdar edir.

- AQTİ bütün bölmələrində təkmilləşdirmə və inkişaf işlərinin davamlılığını təmin etməyi, akreditasiya tələblərinə və İslami iş etikasına zidd təhlükələrdən qaynaqlanan risklərin minimuma endirilməsini prinsip halına gətirmişdir.

- AQTİ öz məqsədlərinə uyğun olaraq halal sertifikatlaşdırma prosesini tərtib etdiyi prosedurlar vasitəsi ilə İslam iş etikasına uyğun olaraq icra edir.

- AQTİ bütün dünyada tanınmış və üstünlük verilən üçüncü tərəf sertifikatlaşdırma orqanları arasında yer almağı, dünya miqyasında sertifikatlaşdırma orqanı olmağı, mövcud coğrafi mövqeyini genişləndirməyi, qonşu və digər ölkələrdə də yer almağı, müstəqil, tərəfsiz, bərabər, şəffaf, risk əsaslı və İslami qaydalar çərçivəsində tətbiqetməni və davamlı yaxşılaşdırmanı əsas şərt sayır.

- AQTİ halal sertifikatlı müştəri müəssisələri İslam iş etikasına, tərəfsizliyə, məxfiliyə və halal sertifikatına uyğunluğunu yoxlamaq məqsədi ilə keçirilən planlı/plansız auditlərlə, bundan əlavə müayinə və sınaq nəticələri ilə təmin etməyi öz öhdəsinə götürür.

**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyətinin sədri** **Əli Nəbiyev**

08.01.2024

Tarix

M.Y